BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 Humanitar elmlər seriyası 2011

UOT 94 (479.24)
94 "04/15"

# AZƏRBAYCANIN ORTA ƏSR ŞƏHƏRLƏRİNDƏ SƏNƏTKARLIQ TƏŞKİLATLARI

**B.A.RƏCƏBOVA**
*AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu*
*SELAVİ 81@ ru*

*Orta əsrlər dövründə Azərbaycanın orta əsr şəhərlərində sənətkarlığın müxtəlif sahələri mövcud olmuşdur. Bunu istər yazılı mənbələrə, istərsə də arxeoloji qazıntıların nəticələrinə əsasən müəyyənləşdirmək olar. Bu sənət sahələri üzrə bir sıra emalatxanalar fəaliyyət göstərmişdir. Bu emalatxanalarda çalışan ustalar sənətkarlıq təşkilatlarında birləşmişdilər.*

**Açar sözlər:** Azərbaycan, sənət, şəhər, təşkilat, sənətkarlıq təşkilatları

Arxeoloji qazıntılar nəticəsində kifayət qədər istehsalat kompleksləri, sənətkarların əmək alətləri və ləvazimatları, xammal qalıqları, yarım fabrikatlar, istehsal çıxarları, eləcə də çoxsaylı sənətkarlıq nümunələri aşkar lanmışdır (1, 112).

Bu istehsal kompleksləri arasında Beyləqan, Bakı, Şabran kimi şəhərlərdə zərgərliyə aid olan emalatxana qalıqları aşkar olunmuşdur.

Beyləqanın şimal-şərq qala divarları yanında aparılan qazıntılar zamanı kiçik otaq aşkar edilmişdir (5, 104). Buradan bir neçə ədəd gil qəlib, mis çıxarları və bir sıra alətlər tapılmışdır. Digər otaqdan ərinmiş metalı tökmək üçün qab, qızılın əyarının yoxlanılması üçün istifadə edilən məhək daşı, mis və tuncdan yarımfabrikat bəzək əşyaları (sırğa, üzük, bilərzik) tapılmışdır. Bütün bu əşyayi-dəlillərə əsaslanaraq Minkeviç – Mustafayeva bu otaqlardan birinin zərgər emalatxanası olduğunu ehtimal edir (5, 104).

Belə tip sənətkarlıq emalatxanalarının olması orta əsr şəhərləri üçün xarakterik olmuşdur. Belə ki, 2002-ci ildə Şabranın qala divarının şimal hissəsində aşkar olunmuş VIII bürcün xarici divarı sahəsində aşkara çıxarılan sənətkarlıq emalatxanası buna misal ola bilər. Bakı şəhərində isə indiki Hüsü Hacıyev küçəsində «Misgər məhəlləsi», «Zərgər palanı» adlanan məhəllələr olmuşdur. Heç təsadüfi deyil ki, burada inşaat işləri zamanı çoxlu mis qazıntıları, misgərlik sənəti məhsulları və əmək alətləri tapılmışdır (4, 35).

Ən iri zərgərlik emalatxanalarının Təbriz şəhərində yerləşməsi haqqında məlumatlar vardır. Belə ki, burada zərgərlər xüsusi raştada yerləşirdi. Onların dükan və emalatxanaları bir-birinin yanında olur, «zərgər bazarı» adlanırdı.

Bəzi mənbələrə əsaslanıb, deyə bilərik ki, Təbrizdəki sənətkarlıq məhəllələrindən biri Qaraağac adlanırdı və o şəhərin qərbində yerləşirdi. Buradakı Mehdəmin məhəlləsində tacirlər, zərgərlər, qiymətli daşlarla işləyən cəvahirsazlar və dərzilər yerləşmişdi (3, 57).

Azərbaycanın iri feodal şəhərlərində karxanalar fəaliyyət göstərirdilər.

Karxanalar demək olar ki, bütün sahələri özündə birləşdirirdi. Burada bədii ornamentdən başlayaraq, qızılla tikmə peşələri var idi. Sənətkarlar, bazar cərgələrində olduğu kimi yerləşdirilirdi. Şarden yazır ki, şahın karxanalarında hər bir sənətə aid olan sənətkarlar təhkim olunmuşdu. Lazım olanda sənətkarlar işi öz evlərində və yaxud digər yerlərdə yerinə yetirə bilərdilər (3, 92).

Hər bir karxana sənətin növünə uyğun adlanırdı. Məsələn, zərgərxana – zərgərlik emalatxanası, misgərxana - misgərlər emalatxanası, əsləhxana-silah emalatxanası və s.

Bu emalatxanalarda çalışan ustaların emalatxana daxilində öz qayda-qanunları olmuş və onlar sənətkarlıq təşkilatlarında birləşmişlər.

İri Azərbaycan feodalları da belə karxanalara sahib idilər. Onların hər biri öz üzərində başçıya və əsas ustaya – usta başına malik idilər. Karxana irsi xarakter daşıyırdı. Belə ki, XVII əsrdə zərgərlik emalatxanalarında zərgərbaşı vəzifəsini Mir Məhəmməd Seyid və onun törəmələri tuturdu (3, 92).

Arxeoloji etnoqrafik materiallardan və yazılı mənbələrdən məlum olur ki, Azərbaycanda bu dövrdə sənətkarlar, daha doğrusu, sənətkar təşkilatları ölkənin həyatında mühüm ictimai mövqe tutur və xüsusilə şəhərlərin idarə olunmasında böyük nüfuza malik idilər. Məhz bu dövrdə «Oğuznamə»nin (XI əsr) müəllifi hakim dairələrə tövsiyyə edirdi ki, «uşaqlarınıza sənət öyrədin», Nizami Gəncəvi isə kərpickəsən ustanın dili ilə gənclərə başqasından asılı olmamaq üçün özgəyə əl açmamaq üçün sənətlə, zəhmətlə məşğul olmağı məsləhət görürdü (1, 115).

Bəzi tədqiqatçıların fikrincə, son orta əsrlərdə şəhərlərdə sənətkarların böyük əksəriyyəti «əsnaf», «möhtərizə», «ozan» adlarıyla məlum olan peşə təşkilatlarında birləşirdilər. Lakin Qərbi Avropanın sex təşkilatlarından fərqli olaraq onların fəaliyyət sahəsi məhdud olub, əsasən vergilərin bölüşdürülməsi və ödənilməsindən ibarət idi.

Bəzi mənbələrə əsaslansaq belə nəticə çıxartmaq olar ki, 1) sənətkarların əksəriyyəti tək işləyənlər; 2) Əsnaflarda fəaliyyət göstərənlər; 3) İri feodal kitabxanlarında (karxanlarda) çalışanlar idi.

Müsəlman əsnaflarında müxtəlif sənət sahələrinin himayədarları olmuşdur ki, bunlardan 32 müqəddəs şəxsiyyətin adları Evliya Çələbi tərəfindən göstərilmişdir (3, 65).

Tək işləyən sənətkarlar da, əsnaflarda fəaliyyət göstərənlər kimi müxtəlif vergi və feodal mükəllifiyyətlərini ödəməli idilər. Əsnaflara daxil olmuş sənət-

karlar bazar cərgələrində özləri üçün dükan-emalatxana icarəyə götürür. Bunlar feodallara məxsus olurdu ki, onlar sənətkar və tacirlərdən icarə haqqı alırdılar. Bəzi sənətkarların emalatxana və dükanları isə dini idarələrə məxsus idi.

Ümumiyyətlə, orta əsr sənətkarları dinə bağlı insanlar olmuşdur. Onların özlərini aparmaq qaydaları bir növ risalələlərdə öz əksini tapmışdı. Risalələr bir növ sexlərdə yazılı təlimatları əvəz edirdi. Risalələrin nə vaxt meydana gəlməsi haqqında yazılı mənbələrdə heç bir məlumat yoxdur. Risalə ərəb sözü olub, mənası göndəriş, məktub, qanun deməkdir.

Sənətkarlara risalələri gündə beş dəfə oxumaq təklif olunurdu. Şeyxlər, naib və ustalara üçüncü, dördüncü və beşinci günlər göstərilən nizamnamə və qaydaları sənətkarların iclasında oxumaq göstərilirdi.

Risalələr və digər sənədlərdə sənətkarlıqla məşğul olan usta və şagirdlərin qarşısına qoyulmuş bir sıra vəzifələr öz əksini tapmışdı. Şagirdliyə qəbul üçün vahid yaş dərəcəsi yox idi. Şagirdin yaşı usta tərəfindən və valideynlər tərəfindən müəyyən edilirdi. Şagirdin fiziki sağlamlığı və işin xarakterindən asılı olaraq zərgərlik sənətinə qəbul olunmuş şagirdin görmə fəaliyyəti yaxşı olmalı idi.

Bəzi mənbələrə əsaslanaraq şagirdlər üçün 12-15 yaş həddi qoyulurdu. Şagird ustanın bütün tələblərini diqqətlə yerinə yetirməli idi. Usta şagirdini istədiyi vaxt ustalığa keçirə bilərdi. O, bunu o vaxt lazım bilirdi ki, şagird artıq sənətinə aid bir sıra bilikləri əldə etmiş olurdu.

Məlum olduğu kimi emalatxana və yaxud karxanalarda sənətkarlar öz şagirdləri ilə birgə çalışırdılar. Evdə çalışan zərgərlər bəzən tək və yaxud şagirdi ilə işləyirdi.

XVI əsr mənbələrində şahın kənizlərindən söhbət açılır ki, onları qızıltikmə işini öyrənmək üçün Təbriz ustalarına verirdilər ki, şagirdlik dövrünü keçirdikdən sonra müəyyən vaxtla şah emalatxanalarında (karxanalarda) işləsinlər (6, 77).

Bəzi tədqiqatçıların yazdığına görə şagird hüquqi cəhətdən azad idi. Lakin bizə elə gəlir ki, onun vəziyyəti iqtisadi cəhətdən ustadan asılı idi. Usta şagirdə istədiyi qədər məvacib ayıra bilərdi. Şagirdin ustalığa keçməsi «qurşaqbağlama» ayini ilə həyata keçirilirdi. O, müxtəlif terminlərlə azərbaycanlılarda «qurşama» yaxud «kuyşama», ərəblərdə «sədd», iranlılarda «mianbəstə», «kəmər-bəstə» adlanırdı (3, 70).

Hələ XII əsrdə Rəvəndi bədii sənət nümayəndələrinin «qurşaqlama» mərasiminə riayət etmələri haqqında məlumat vermişdir (3, 8. 70). Bu mərasimin yaranma səbəbləri hələ ki, elmi cəhətdən izah olunmayıb. Yalnız onu ehtimal etmək olar ki, qurşaq yəni kəmərlənmək bütün xalqlarda bir qoruyucu vasitə olmuşdur. Ola bilər ki, bu ayin vasitəsi ilə ilk növbədə sənəti öyrənmiş insanı pis qüvvələrdən qorumaq üçün qurşaqlama ayini keçirilmişdir. Sonrakı dövrdə bu ayin islam dini ilə Həzrət Əlinin adı ilə əlaqələndirilmişdir. Heç təsadüfi deyil ki, Azərbaycanda gəlin köçən qızların belinə qurşaq bağlamaq adəti hələ də davam edir.

Orta əsrlərdə Azərbaycanda hər hansı bir sənətkarlıq, yaxud peşə nəsildən-nəsilə keçirdi. Çox vaxt bacarıqlı sənətkarları onların oğulları və nəvələri əvəz edirdi. Bununla yanaşı onlar bir sıra vergi və mükəllifiyyətləri də yerinə yetirməli idilər. Ümumiyyətlə, sənətkarlıq, sənətkarların vəziyyəti, onların həyat tərzinin öyrənilməsi, ölkə iqtisadiyyatının inkişafı ilə üzvü surətdə bağlı olmuşdur. Orta əsrlər dövründə Azərbaycanda 100-dən artıq sənət ixtisası üzrə sənətkarlar çalışırdılar (9, 362).

Bu sənətkarların əksəriyyəti, əxi cəmiyyətində birləşmiş və sərbəst işləməyə üstünlük verirdilər.

Aparılan tədqiqatlara və əldə olunan ədəbiyyata əsasən orta əsrlərdə Azərbaycanın bəzi şəhərlərində sənətkarlıq təşkilatlarının olması haqqında məlumatlar toplamaq mümkün olmuşdur. Bu ilk növbədə orta əslərdə Əxi təşkilatları ilə əlaqədardır. Həmin təşkilat eyni zamanda dini cərəyanlarla birlikdə fəaliyyət göstərmişdir. «Əxi» qardaşlıq cəmiyyəti üzvlərinin adları Nardaran piri abidələri kompleksində də vardır.

Abşeronun Kürdəxanı kəndindəki XV əsrin I yarısına aid zaviyyənin Şeyx Əxi Şirəmanın adı çəkilən kitabəsində də onun Əxi təşkilatının üzvi olduğu göstərilir (8, 239).

Əxi ərəbcə «mənim qardaşım» deməkdir. Bu təşkilat XI əsrdə artıq Ön Şərqin bir çox ölkələrində yayılmışdı. XIV əsrdə əxilər Kiçik Asiyanın ictimai həyatında mühüm rol oynayırdılar (2, 119).

Tədqiqatçıların əksəriyyəti Əxi cəmiyyətinin Azərbaycanda yarandığını və oradan Kiçik Asiyaya keçdiyini göstərirlər (3, 12).

**ƏDƏBİYYAT**


1. Azərbaycan arxeologiyası. 6 cilddə. VI c., Bakı: Şərq-Qərb, 2008, 630 s.
2. Aşurbəyli S.B. Bakı şəhərinin tarixi. Bakı: Elm, 1998, 356 s.
3. Гейдаров М.Х. Социально-экономические отношения и ремесленные организации в городах Азербайджана в XIII-XVII вв. Баку: Элм, 1987, 211 с.
4. İbrahimov F.Ə. Azərbaycanın orta əsr şəhərlərində metalişləmə sənəti (IX-XIII əsrlər). Bakı: Elm, 1988, 176 s.
5. Минкевич-Мустафаева Н.В. Раскопки ремесленного квартала Байлакана МИА, №133. М-Л: Елм, 1965, 100-101 с.
6. Петрушевский И.П. Очерки по истории феодальных отношений. ЛГУ. 1949, 382 с.
7. Onullahi S.M. XIII-XVII əsrlərdə Təbriz şəhəri (sosial-iqtisadi tarix) Bakı: Elm, 1982, 278 s.
8. Rəcəbova B. Azərbaycanın ənənəvi sənətkarlıq məmulatı və istehsalı tarixindən (IV-XVII əsrlər). Bakı: Elm, 2009, 348 s.
9. Иологлу Г. Религиозно-мусульманское братство ахи в Азербайджане / Кавказ археология и этнология. Международная научная конференция 11-12 сентября, 2008. Азербайджан. Шамкир. Материалы конференции. Баку, 2009, 362 с.

## РЕМЕСЛЕННЫЕ ОРГАНИЗАЦИИ В СРЕДНЕВЕКОВЫХ ГОРОДАХ АЗЕРБАЙДЖАНА

**Б.А.РАДЖАБОВА**

### РЕЗЮМЕ

В эпоху средневековья в городах Азербайджана развивались различные виды ремесла. Об этом говорят данные письменных источников, а так же результаты археологических раскопок.

В городах существовали мастерские по разным ремеслам. Работающие в этих мастерских мастера-ремесленники объединялись в общественные организации.

**Ключевые слова:** Азербайджан, ремесло, город, организация, ремесленные организации

## HANDICRAFT ORGANIZATIONS IN MEDIEVAL CITIES

**B.A.RAJABOVA**

### SUMMARY

Different kinds of workmanship developed in medieval cities of Azerbaijan that are reflected in historical sources and revealed through archaelogical excavations.

In the cities, there were workshops on different handicrafts, master-workmen of which united in social organizations.

**Kew word:** Azerbaijan, trade, social organizations, trade organizations